**Elnarə Əhməd ƏHMƏDOVA**
Qərbi Kaspi Universiteti, Politologiya, Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d.
E-mail: elnara.akhmedova@wu.edu.az

**Əli İmran MİRZƏYEV**
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: alimirzayevlaw@gmail.com

# CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN İSLAHINDA FƏRDİ YANAŞMA PRİNSİPİ: HÜQUQİ VƏ PSİXOLOJİ TƏHİLİ

**Xülasə**

Tədqiqatın məqsədi cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipinin cinayət icra hüququ və penitensiar psixologiya kontekstində normativ, institusional və psixoloji mexanizmlərini sistemli şəkildə təhlil etməkdən ibarətdir. Tədqiqatın metodu kimi normativ-hüquqi təhlil, müqayisəli hüquqi yanaşma, kriminoloji və psixoloji konsepsiyaların sintezinə əsaslanan sistemli-analitik üsul tətbiq olunur. Tədqiqatın nəticələri göstərir ki, cəzaların icrasının fərdiləşdirilməsi, risklərin psixodiaqnostik qiymətləndirilməsi, motivasiya və dəyərlər sisteminin psixokorreksiyası, emosional tənzimləmə və sosial-psixoloji adaptasiya mexanizmləri vahid konseptual çərçivədə birləşdirildikdə penitensiar islah prosesinin səmərəliliyi yüksəlir, residiv cinayətkarlığın səviyyəsi azalır və cəza institutunun sosial ədalət funksiyası möhkəmlənir.

**Açar sözlər:** fərdi yanaşma, cəzaların icrası, penitensiar psixologiya, kriminoloji risk, reabilitasiya.

**UOT:** 343.85:159.923
**JEL:** K14, D91
**DOI:** https://doi.org/10.54414/IMZE4742

## Giriş

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi müasir cinayət icra hüququnun və penitensiar siyasətin nəzəri və praktiki konstruksiyasında sistemformalaşdırıcı kateqoriya kimi çıxış edir, çünki cəza institutunun məqsədləri yalnız repressiv təsirin həyata keçirilməsi ilə deyil, təqsirkarın şəxsiyyətinin transformasiyası, sosial reinteqrasiya imkanlarının genişləndirilməsi və residiv risklərinin azalması ilə ölçülür. Müasir hüquqi düşüncə çərçivəsində cəzanın məqsədi cəmiyyətin müdafiəsi, sosial ədalətin bərpası və yeni cinayətlərin qarşısının alınması ilə məhdudlaşdırılmır, eyni zamanda şəxsiyyətin hüquqi şüurunun, dəyər oriyentasiyalarının və davranış modellərinin dəyişdirilməsi kimi dərin psixoloji proseslərin idarə olunmasını tələb edir. Bu baxımdan fərdi yanaşma prinsipi cinayət hüququ, cinayət-prosessual hüquq, cinayət icra hüququ və penitensiar psixologiyanın kəsişməsində formalaşan inteqrativ anlayış kimi çıxış edir, çünki təqsirkarın yalnız törədilmiş əməlin hüquqi tərkibinə əsaslanan qiymətləndirilməsi onun real reabilitasiya potensialını tam əks etdirmir.

Azərbaycan Respublikasının cinayət və cəzaların icrası qanunvericiliyində cəzaların icrasının fərdiləşdirilməsi, məhkumların islahında rejim, tərbiyə işi, əmək, təhsil və sosial təsir vasitələrinin diferensial tətbiqi ilə bağlı müddəalar bu prinsipin normativ bazasını müəyyən edir, penitensiar psixologiya isə həmin normativ çərçivənin psixodiaqnostik, psixokorreksiya və reabilitasiya mexanizmlərini işləyib hazırlayır. Məhkumun şəxsiyyəti barədə kriminoloji məlumatların, psixoloji profilin, motivasiya sisteminin, emosional tənzimləmə səviyyəsinin, sosial adaptasiya qabiliyyətinin elmə əsaslanan təhlili fərdi islah strategiyasının qurulmasını

zəruri edir və belə strategiya real reabilitasiya nəticələrinə yönəlmiş funksional model kimi çıxış edir. Bu tədqiqat məhz fərdi yanaşma prinsipinin hüquqi və psixoloji aspektlərinin vahid konseptual müstəvidə şərhinə həsr olunur.

**Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi: hüquqi təhili**

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi müasir cinayət icra hüququnun və penitensiar siyasətin strukturunda normativ, institusional və praktiki baxımdan əsas funksional elementlərdən biri kimi çıxış edir və cəza siyasətinin məqsədlərinin – ictimai təhlükəsizliyin təmin edilməsi, təqsirkarın islahı, yeni cinayətlərin qarşısının alınması və sosial ədalət müvazinətinin qorunması – həyata keçirilməsində həlledici mexanizm rolunu oynayır. Bu prinsipin hüquqi təhlili məcrasında cinayətkarın şəxsiyyətinin kriminoloji xüsusiyyətləri, tətbiq edilən cəza və islah vasitələrinin fərdiləşdirilməsi, beynəlxalq penitensiar standartların tələbləri və milli qanunvericiliyin sistematik şərhi qarşılıqlı asılılıqda araşdırılmalıdır.

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi mahiyyət etibarilə şəxsin yalnız törədilmiş əməlin hüquqi tərkibinə görə deyil, eyni zamanda sosial-psixoloji xüsusiyyətlərinə, həyat tərzinə, cinayətə gətirib çıxaran şəraitə, əvvəlki hüquqazidd davranış təcrübəsinə, ailə-məişət mühitinə və reabilitasiya potensialına görə qiymətləndirilməsini və bu qiymətləndirmə əsasında cəza icrasının rejimi, tərbiyəvi təsir formaları, psixoloji və sosial tədbirlər sisteminin fərdiləşdirilməsini nəzərdə tutur. Bu prinsip cəzaların icrası sahəsində formal bərabərlik anlayışını məzmunca fərqli hüquqi yanaşma ilə birləşdirir, yəni eyni kateqoriyadan olan cinayətə görə məhkum edilmiş fərqli şəxslər üçün eyni rejim və eyni təsir vasitələrinin avtomatik tətbiqini istisna edir və hər bir məhkum barəsində cəzanın islahedici təsirinin maksimal səviyyədə əldə olunmasına yönəlmiş diferensial yanaşmanın hüquqi əsasını formalaşdırır.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 7-ci maddəsində əksini tapmış prinsiplər arasında cəzaların icrasının fərdiləşdirilməsi, məhkumların qanun qarşısında bərabərliyi, məcburetmə tədbirlərindən və islah vasitələrindən məqsədəuyğun istifadə edilməsi xüsusi normativ blok yaradır və bu blokun daxili məntiqi fərdi yanaşma prinsipinin konkret hüquqi mexanizmlər vasitəsilə gerçəkləşdirilməsinə yönəlir [3]. Məcəllənin 8-ci maddəsində isə məhkumların islah edilməsinin əsas vasitələri – rejim, tərbiyə işi, ictimai faydalı əmək, təhsil və peşə hazırlığı, sosial təsir tədbirləri – sistemli şəkildə sadalanır və bu vasitələrin tətbiqinin məzmunu məhkumun şəxsiyyətinin xüsusiyyətlərinə uyğun təşkil edilməli olduğuna dair normativ tələblər formalaşdırılır [4].

Məhkumun hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, onun hüquqi müdafiəsinin təmin edilməsi, cəzanın icrası zamanı insan ləyaqətinə hörmət edilməsi də fərdi yanaşma prinsipinin hüquqi strukturuna daxil edilir, çünki şəxsiyyətin reabilitasiya potensialının həyata keçirilməsi üçün məhkumun hüquqi statusunun təminatlı olması zəruri şərt kimi çıxış edir. Cəzaların icrası zamanı məhkumların islah vasitələrinin tətbiqində qanuniliyin və proporsionallığın gözlənilməsi, motivasiyanı gücləndirən həvəsləndirmə mexanizmlərinin (rejimin yüngülləşdirilməsi, cəzanın qalan hissəsindən azadetmə, mükafatlandırma tədbirləri) nəzərdə tutulması fərdi yanaşmanın normativ təzahür formalarına aiddir və davranışın müsbət dinamikasının hüquqi stimullaşdırılması vasitəsilə fərdi islah strategiyasını möhkəmləndirir.

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma yalnız milli qanunvericiliyin tələbləri ilə məhdudlaşan daxili hüquqi kateqoriya deyil, eyni zamanda beynəlxalq insan hüquqları standartları və penitensiar qaydalar sistemində də mühüm prinsipial mövqeyə malikdir. Birləşmiş Millətlər Təşkilatının "Nelson Mandela Qaydaları" kimi tanınan Məhbuslarla rəftarın minimal standart qaydalarında penitensiar təsir sisteminin əsas məqsədi məhkumların reabilitasiyası, cəmiyyətə qaytarılmasına hazırlıq, insan ləyaqətinə hörmət və qeyri-insani rəftarın qadağan olunması kimi əsas prinsiplərlə ifadə olunur və bu prinsiplər fərdi reabilitasiya proqramlarının qurulmasını zəruri şərt kimi təqdim edir [4].

Avropa Şurasının "Avropa penitensiar qaydaları" haqqında tövsiyə sənədində penitensiar siyasətin əsas məqsədləri sırasında məhkumların fərdi ehtiyaclarına uyğun olaraq təhsil, peşə hazırlığı, psixoloji yardım, sosial

xidmətlər və cəmiyyətə inteqrasiyanı təmin edən tədbirlərin həyata keçirilməsi xüsusi vurğulanır. Bu qaydalarda cəzaçəkmə müəssisələrinin idarə edilməsində ümumi standartlarla yanaşı, fərdlərin psixoloji xüsusiyyətləri, sağlamlıq durumu, sosial-fəaliyyət potensialı nəzərə alınmaqla risklərin qiymətləndirilməsi və fərdi icra planlarının tərtibi əsas tələb kimi qoyulur, bu isə diferensial rejim sisteminin qurulması yolu ilə fərdi yanaşma prinsipinin təşkilati bazasını möhkəmləndirir [2].

Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsində azadlıq və toxunulmazlıq hüququnun qorunması, əsassız azadlıqdan məhrumetmənin qadağan olunması, hüquqi müəyyənlik və proporsionallıq prinsiplərinin təmin edilməsi tələb olunur və bu tələblər cəzaların icrası mərhələsində də öz aktuallığını saxlayır, çünki azadlıqdan məhrumetmə rejimi çərçivəsində hər bir məhdudlaşdırıcı tədbir məhkumun konkret davranışına, təhlükəlilik dərəcəsinə və islah dinamikasına adekvat olmalıdır [6]. Konvensiya çərçivəsində formalaşmış məhkəmə təcrübəsində penitensiar şəraitin insan ləyaqətinə uyğunluğu, fərdi risk qiymətləndirilməsinin aparılması, psixoloji yardımın və tibbi xidmətin əlçatanlığı məhkumların hüquqlarının təminatlılığının əsas indikatorları kimi dəyərləndirilir.

**Cinayətkarın şəxsiyyəti, kriminoloji yanaşma və fərdiləşdirmə**

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşmanın nəzəri əsasları cinayətkarın şəxsiyyətinin kriminoloji təhlili ilə sıx bağlıdır, çünki fərdi islah strategiyasının qurulması üçün şəxsiyyətin struktur elementlərinin – motivasiya sistemi, dəyərlər oriyentasiyası, sosial rolu, əvvəlki deviant davranış formaları, frustrasiya və aqressiya səviyyəsi, intellektual və emosional resursları – kompleks şəkildə öyrənilməsi tələb olunur. Kriminoloji tədqiqatlarda cinayətkarın şəxsiyyətinin təhlükəlilik dərəcəsinə təsir edən faktorların müəyyən edilməsi, müxtəlif sosial-demoqrafik qruplar üzrə cinayət davranışının dinamikası və motivlərinin təhlili diferensial cinayət siyasətinin və fərdi reabilitasiya proqramlarının elmi əsaslandırılmasına xidmət edir.

Milli kriminoloji ədəbiyyatda cinayətkarın şəxsiyyəti ilə bağlı aparılan araşdırmalar cəzanın fərdiləşdirilməsində təqsirkarın yaşının, təhsil səviyyəsinin, ailə statusunun, peşə fəaliyyətinin, iqtisadi vəziyyətinin, əvvəlki məhkumluğun, alkoqol və narkotik asılılığının, psixopatoloji xüsusiyyətlərin nəzərə alınmasının vacibliyini vurğulayır və bu komponentlərin hər biri penitensiar islah vasitələrinin seçimi zamanı həlledici rol oynaya bilər. Məsələn, yetkinlik yaşına çatmayanların islahında tərbiyəvi təsir tədbirlərinin prioritetliyi, ailə və məktəb mühitinin cəlb olunması, byehavioral terapiya elementlərinin, təhsil və peşə hazırlığının intensiv tətbiqi fərdi yanaşmanın kriminoloji əsaslandırılmış formaları hökmündə çıxış edir və azadlıqdan məhrumetmənin son vasitə kimi nəzərdə tutulması ilə uzlaşdırılır.

Məhkumların islah edilməsində istifadə olunan əsas vasitələr sırasında tərbiyə işi, rejim, ictimai faydalı əmək, təhsil və sosial təsir formaları fərdiləşdirmə prinsipinin praktiki reallaşma müstəvisini təşkil edir və bu vasitələrin hər biri məhkumun şəxsiyyət xüsusiyyətlərinə uyğunlaşdırılmalı, reabilitasiya məqsədlərinə xidmət edən situativ mexanizm qismində tətbiq edilməlidir. Penitensiar müəssisə administrasiyası məhkumlar barəsində fərdi iş planları tərtib etməli, bu planda tərbiyə söhbətləri, psixoloji konsultasiyalar, hüquqi maarifləndirmə, mütəxəssis tərəfindən aparılan qrup məşğələləri, mədəni-kütləvi tədbirlər, idman fəaliyyətləri və əmək prosesində iştirak kimi komponentlərin konkret məzmunu göstərilməlidir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təsdiq olunan normativ-saziş sənədlərində və metodiki göstərişlərdə penitensiar müəssisələrdə aparılan tərbiyə işinin formaları sırasında cəza icrası qaydalarını qərəzli pozan məhkumlarla fərdi tərbiyə işinin aparılması, məhkumların azadlığa hazırlanması, onların sosial-psixoloji reabilitasiyası, yaşayış yeri və iş məsələlərinin həllinə kömək göstərilməsi kimi fəaliyyət istiqamətləri qeyd edilir və bu istiqamətlər fərdi yanaşma prinsipinin praktik təşkilati çərçivəsini formalaşdırır [5]. Bu çərçivədə ictimai təşkilatların, qeyri-hökumət qurumlarının, dini icmaların, eləcə də beynəlxalq tərəfdaş qurumların penitensiar islah prosesində iştirakı, məhkumlara mənəvi və maddi yardımın göstərilməsi, reabilitasiya proqramlarının həyata keçirilməsi ilə bağlı mexanizmlər də nəzərdə tutulur.

Cəzaçəkmə müəssisələrində rejim qaydalarının tətbiqi də diferensial xarakter daşıyır, belə ki, müxtəlif təhlükəlilik səviyyəsinə malik məhkumlar üçün müxtəlif rejim şərtləri, təhlükəsizlik tədbirləri və nəzarət formaları müəyyən edilir, yaxşı davranış nümayiş etdirən və islah istiqamətində pozitiv dinamika göstərən şəxslər üçün rejimin yüngülləşdirilməsi, qısamüddətli və uzunmüddətli görüşlərin, telefon danışıqlarının, məktublaşmanın, əlavə paket və banderolların qəbul edilməsi kimi həvəsləndirici tədbirlər tətbiq edilir. Bu həvəsləndirmə mexanizmləri təkcə intizamın təmin olunmasına deyil, eyni zamanda məhkumların öz davranışına məsuliyyətli münasibət formalaşdırmasına və islah prosesində aktiv iştirakına motivasiya yaradır, fərdi reabilitasiya məqsədləri ilə davranış nəticələri arasında birbaşa əlaqə yaradır.

Məhkəmələr tərəfindən cəzanın təyin edilməsi mərhələsində fərdi yanaşma prinsipi cinayət qanunvericiliyinin cəzanın məqsədi və ümumi əsasları barədə müddəaları ilə bağlı şəkildə həyata keçirilir, çünki cəza təyin edilərkən törədilmiş əməlın ictimai təhlükəlilik dərəcəsi ilə yanaşı, təqsirkarın şəxsiyyətini xarakterizə edən halların hərtərəfli nəzərə alınması, cəzanın növü və həddinin bu hallara adekvatlıq dərəcəsi qiymətləndirilməlidir. Ali Məhkəmənin plenum qərarlarında məhkəmələrə tövsiyə edilir ki, ağır cinayətlər törətmiş və əvvəllər məhkum edilmiş şəxslərə qarşı cəza siyasətində cəmiyyəti qoruma funksiyasını prioritet saxlasın, lakin ilk dəfə az təhlükəli cinayət törətmiş və islah potensialı yüksək olan şəxslər üçün cəmiyyətdən təcrid etmədən islah imkanı verən cəza növlərindən – azadlığın məhdudlaşdırılması, ictimai işlər, cərimə, islah işləri və s. – geniş istifadə edilsin [7].

Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azadetmə institutları, zərərçəkmişlə barışma, ziyanın ödənilməsi, şəraitin dəyişməsi, ictimai təhlükəliliyin itirilməsi, amnistiya və əfv mexanizmləri də fərdi yanaşma prinsipinin təzahür formalarından hesab olunur, çünki bu institutlar konkret təqsirkarın davranışında və sosial vəziyyətində baş vermiş müsbət dəyişikliklərin hüquqi qiymətləndirilməsinə, cəza siyasətinin humanist elementlərlə zənginləşdirilməsinə xidmət edir. İlk dəfə böyük ictimai təhlükə törətməyən cinayət etmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi ilə bağlı müddəalar, zərərin könüllü ödənilməsi, cinayətin üstünün açılmasına fəal kömək, səmimi peşmanlıq hallarında diferensial hüquqi yanaşmanın tətbiqi cəzanın məqsədinin yalnız repressiv deyil, eyni zamanda islahedici və preventiv mahiyyət daşıdığını nümayiş etdirir.

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma yalnız cəzaçəkmə müddəti ərzində həyata keçirilən tərbiyə və nəzarət tədbirləri ilə məhdudlaşdırılmamalı, eyni zamanda azadlığa çıxış mərhələsində və postpenitensiar dövrdə sosial reintegrasiya prosesində də davam etdirilməlidir. Məhkumların azadlığa hazırlanması üzrə tədbirlər sırasında onların yaşayış yeri və ailə mühiti ilə əlaqələrinin bərpası, məşğulluq imkanlarının araşdırılması, peşə ixtisasının əmək bazarının tələblərinə uyğunlaşdırılması, psixoloji adaptasiya proqramlarının təşkili və sosial təminat məsələlərinin həllinə kömək göstərilməsi kimi elementlər fərdi reabilitasiya planının struktur komponentləri kimi çıxış edir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin sənədlərində məhkumların azadlığa hazırlanması, cəza çəkməkdən azad edildikdən sonra yaşayış yeri, işlə təmin olunma, tibbi və sosial təminat, sosial-psixoloji reabilitasiya məsələlərinin həllinə kömək göstərilməsi penitensiar orqanların və ictimaiyyətin birgə fəaliyyət istiqaməti kimi nəzərdə tutulur və bu fəaliyyətin səmərəliliyi cinayətkarın şəxsiyyətinin islahı prosesində əldə olunmuş müsbət nəticələrin möhkəmləndirilməsinə xidmət edir. Bu mərhələdə yerli icra hakimiyyəti orqanlarının, məşğulluq mərkəzlərinin, sosial xidmət müəssisələrinin, qeyri-hökumət təşkilatlarının, dini icmaların və digər ictimai institutların koordinasiyalı fəaliyyəti vacib rol oynayır, çünki keçmiş məhkumun cəmiyyətə inteqrasiyasının uğuru yalnız penitensiar sistemin deyil, bütün sosial institutların harmonik qarşılıqlı təsirindən asılıdır.

**Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi: psixoloji təhlili**

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi psixoloji baxımdan şəxsiyyətin daxili strukturunu, motivasiya sistemini, emosional tənzimləmə mexanizmlərini, eləcə də sosial münasibətlər şəbəkəsində tutduğu

mövqeyi nəzərə alan məqsədyönlü təsir strategiyasını ifadə edir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, cəza yalnız formal hüquqi reaksiyanın ifadəsi kimi deyil, şüurun, dəyər oriyentasiyalarının, davranış vərdişlərinin və məsuliyyət hissinin yenidən qurulmasına yönəlmiş sistemli psixoloji işin əsas çərçivəsi qismində həyata keçirilsin və cinayətkar davranışın təkrarlanma ehtimalı psixoloji səviyyədə minimuma endirilsin.

Cinayət törətmiş fərdlərin psixoloji portreti eyni tipoloji sxemə sığmır, çünki müxtəlif yaş qruplarına, sosial təbəqələrə, intellektual səviyyələrə və həyat təcrübəsinə mənsub şəxslərin cinayətə gətirib çıxaran daxili motivləri, emosional reaksiya formaları, frustrasiya ilə davranış tərzi, aqressiyanın ifadə üsulları və normativ qaydalara münasibəti kəskin fərqlənir. Bəzi cinayətkarlar üçün əsas aparıcı amil impulsivlik, emosional partlayışa meyllilik və qısamüddətli düşünmə tərzidirsə, başqa qrup üçün fayda yönümlü hesablanmış qərarvermə modeli, sosial empatiya səviyyəsinin zəifliyi və utilitar dəyərlərin üstünlüyü xarakterik olur [9]. Üçüncü bir kateqoriyada isə travmatik həyat təcrübəsi, ailədaxili zorakılıq, uşaqlıq dövründə laqeyd münasibət, sosial təcrid, alkoqol və narkotik asılılığı ilə bağlı psixoloji zədələnmə fonunda formalaşmış deviant davranış nümunələri əsas rol oynayır.

Bu müxtəliflik şəraitində fərdi yanaşma prinsipinin psixoloji məzmunu ondan ibarət olur ki, hər bir məhkum haqqında yalnız hüquqi statusu və törədilmiş əməlın kateqoriyası deyil, həm də psixi funksiyaların inkişaf səviyyəsi, temperament tipi, xarakter quruluşu, dəyərlər sistemi, frustrasiya tolerantlığı, aqressiyanın idarə olunması bacarığı, empatiya potensialı, sosial ünsiyyət vərdişləri və özünüidarə imkanları barədə sistemli psixodiaqnostik məlumatlar toplanır. Psixodiaqnostik məlumatlar əsasında formalaşdırılan fərdi psixoloji profil cəzaçəkmə müəssisəsində tərbiyə işinin məzmununu, psixokorreksiya proqramlarının istiqamətlərini, qrup və fərdi məşğələlərin strukturunu, risklərin səviyyəsini və reabilitasiya resurslarını aydınlaşdırır, nəticədə təsir mexanizmi formal deyil, şəxsiyyətin konkret ehtiyaclarına adaptiv xarakter daşıyır.

Fərdi yanaşma prinsipi psixodiaqnostika mərhələsində xüsusilə əhəmiyyət kəsb edir, çünki cinayətkarın şəxsiyyəti ilə bağlı ilkin təsəvvürlər çox vaxt yalnız törədilmiş əməlin xarici tərəflərinə əsaslanan stereotiplərdən ibarət olur. Sistemli psixodiaqnostik prosesdə klinik söhbət, strukturlaşdırılmış müsahibə, standartlaşdırılmış psixoloji testlər, layihəvi metodlar, müşahidə materialları, həmçinin penitensiar personal və məhkumla ünsiyyətdə olan digər şəxslərin məlumatları inteqrativ şəkildə təhlil edilir. Bu təhlilin məqsədi intellektual səviyyəni, emosional sabitliyi, iradi keyfiyyətləri, özünü nəzarətdə saxlama bacarığını, empatiya və günahkarlıq hissinin inkişaf dərəcəsini, sosial rollara uyğunlaşma qabiliyyətini, psixopatoloji meylləri və asılılıq faktorlarını müəyyənləşdirən psixoloji mənzərəni qurmaqdan ibarət olur.

Risklərin psixoloji qiymətləndirilməsi mərhələsində residiv davranış ehtimalı, aqressiv partlayış riskləri, özünəqəsd və autoaqressiya meylləri, penitensiar mühitdə konfliktə girən davranış modelləri, manipulyativ taktikalara meyl, həmçinin reabilitasiya proqramlarında aktiv iştirak resursları müəyyən edilir. Belə qiymətləndirmə fərdi islah planında təhlükəsizlik və nəzarət səviyyəsinin adekvat seçilməsi üçün əsas yaradır, çünki yüksək risk qrupu üçün psixoloji müdaxilənin forması birbaşa nəzarət elementləri ilə daha sıx, strukturu daha sərt olmalı, aşağı risk qrupunda isə özünüidarə, məsuliyyətli seçim, sosial məsuliyyət hissinin inkişafına yönəlmiş proqramlar üstünlük təşkil etməlidir [1].

Cinayət törətmiş şəxslərin islahında fərdi yanaşmanın psixoloji nüvəsi motivasiya sisteminin, dəyərlər oriyentasiyasının və mənəvi-normativ şüurun transformasiyası prosesinin məqsədyönlü şəkildə təşkilindən ibarət olur. Cinayət davranışının motivləri təkcə maddi fayda əldə etmə, qisas, qısqanclıq və ya impulsiv emosional reaksiyalarla məhdudlaşmır, eyni zamanda sosial ədalət barədə təhrif olunmuş təsəvvürlər, güc və üstünlük kultu, qanunsuz qazanılmış nüfuz və statusu norma kimi qəbul edən submədəniyyət təsiri, özünütəsdiq ehtiyacının patoloji formaları da motivasiya sistemində mühüm rol oynaya bilər.

Psixokorreksiya proqramları fərdi yanaşma əsasında qurulduqda məqsəd cinayətkarın

motivasiya sistemində destruktiv elementləri aşkarlamaq, normativ dəyərlər sisteminə inteqrasiyanı gücləndirmək, empatiya və günahkarlıq hissinin inkişafını stimullaşdırmaq, qərarvermə prosesində uzunmüddətli nəticələr barədə düşünmə vərdişini formalaşdırmaq olur. Bu məqsədlə kognitiv-davranış yönümlü məşğələlər, moral-məntiqi müzakirələr, empatiya təlimləri, qurbanın perspektivindən situasiya analizi, məsuliyyətli seçim texnikaları, konfliktlərin konstruktiv həlli strategiyalarının öyrədilməsi kimi metodlar tətbiq edilir və hər bir metod konkret psixoloji profilə uyğunlaşdırılır [7].

Cinayət davranışının əhəmiyyətli bir hissəsi emosional tənzimləmə mexanizmlərinin zəifliyi, aqressiyanın idarə olunmaması, impulsların nəzarətsiz ifadəsi ilə bağlı olur, xüsusilə məişət zorakılığı, davakar davranış, alkoqol və narkotik təsiri altında törədilmiş cinayətlərdə emosional sahənin disbalansı aparıcı rol oynayır. Fərdi yanaşma prinsipi çərçivəsində psixoloji işin mühüm istiqaməti emosional savadlılığın, özünü müşahidə və özünü tənzimləmə bacarığının inkişafıdır, çünki emosional vəziyyətin adekvat tanınması və ifadəsi, aqressiv impulsun dərk edilməsi və konstruktiv kanala yönəldilməsi gələcəkdə riskli situasiyalarda davranışın idarə olunmasını təmin edir.

Bu kontekstdə relaksasiya texnikaları, nəfəs məşqləri, stressin idarə olunması proqramları, qəzəb menecmenti, emosional introspeksiya vərdişlərinin inkişafı, həmçinin konflikt situasiyalarının psixodrama və rol oynama vasitəsilə işlənilməsi fərdi psixoloji profilə uyğun tətbiq edildikdə məhkumun öz psixoloji proseslərinə məsuliyyətli yanaşmasını gücləndirir. Emosional tənzimləmə sahəsində aparılan psixokorreksiya işi yalnız impulsların məhdudlaşdırılması ilə kifayətlənmir, eyni zamanda pozitiv emosional fəaliyyət sahələrinin – yaradıcılıq, idman, ictimai faydalı əmək, konstruktiv sosial ünsiyyət – reabilitasiya resursu kimi istifadəsini nəzərdə tutur və hər bir məhkum üçün maraq və qabiliyyətlər nəzərə alınmaqla məqsədyönlü seçilir.

Cinayət törətmiş şəxslərin mühüm hissəsində sosial ünsiyyət sferasında adekvat davranış modellərinin formalaşmadığı, konstruktiv dialoq aparmaq, güzəştə getmək, qarşı tərəfin mövqeyini nəzərə almaq, emosional reaksiyaları sözlə ifadə etmək bacarığının məhdud olduğu müşahidə edilir. Fərdi yanaşma prinsipinin psixoloji interpretasiyası sosial-psixoloji adaptasiya səviyyəsinin yüksəldilməsi, ünsiyyət bacarıqlarının inkişafı, empatik dinləmə, konfliktlərin danışıqlar yolu ilə həlli, sosial rolların konstruktiv mənimsənilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsini tələb edir.

Qrup psixotreninqləri, sosial bacarıq təlimləri, kommunikativ oyunlar, rollu situasiyalar, məhkumların öz aralarında əməkdaşlıq tələb edən layihələrə cəlb olunması fərdi psixoloji ehtiyaclara uyğun formalaşdırıldıqda qrup dinamikasında pozitiv nüfuz mərkəzlərinin yaranmasına, destruktiv liderlik modellərinin zəifləməsinə, sosial məsuliyyət və qarşılıqlı asılılıq şüurunun güclənməsinə səbəb olur. Fərdi profilə əsaslanan qrup formalaşdırılması – yaş, intellektual səviyyə, cinayət tipi, aqressivlik dərəcəsi, asılılıq tarixi və digər parametrlərə görə uyğunlaşdırma – qrup prosesinin təhlükəsizliyini və reabilitasiya effektini artırır, çünki uyğunsuz tərkib psixoloji gərginlik və konflikt riskini yüksəldir.

Müasir penitensiar psixologiya çərçivəsində cinayət davranışının mühüm determinantlarından biri alkoqol və narkotik asılılığı, eləcə də uşaqlıq dövrünün travmatik yaşantıları hesab olunur və bu faktorlar fərdi yanaşma prinsipinin konseptual çərçivəsində mütləq nəzərə alınmalıdır. Asılılıq komponenti mövcud olduqda yalnız hüquqi cəza və ənənəvi tərbiyə söhbətləri ilə məhdudlaşmış təsir mexanizmi reabilitasiya baxımından tam nəticə vermir, çünki asılılıqla bağlı psixoloji mexanizmlər, craving, inkar strategiyaları, məsuliyyəti ötürmə meylləri və impulsiv qərarvermə modeli xüsusi terapevtik müdaxilə tələb edir [6].

Travmatik təcrübə ilə bağlı hallarda post-travmatik stress əlamətləri, etimada əsaslanan münasibət qurmaq çətinliyi, emosional ifrat reaksiya, özünü qorumaya yönəlmiş aqressiv davranış, dissosiativ meyllər müşahidə oluna bilər və psixokorreksiya proqramı bu xüsusiyyətlər nəzərə alınmaqla qurulmadıqda, formal tərbiyə təsiri altında gizli psixoloji ziddiyyətlər həll edilməmiş qalır. Buna görə fərdi yanaşma çərçivəsində asılılıq terapiyası, travma yönümlü

psixoterapiya elementləri, dəstək qrupları, psixoedukasiya proqramları inteqrativ sistemdə tətbiq edilir və hər məhkumun psixoloji tarixi nəzərə alınmaqla müdaxilə dərinliyi və müddəti planlaşdırılır [8].

Fərdi yanaşma prinsipinin psixoloji reallaşdırılması penitensiar psixoloqun və sosial işçinin peşəkar fəaliyyətini, həmçinin hüquqşünas, pedaqoq, tibbi personal, penitensiar rəhbərlikdən ibarət multidissiplinar komandanın koordinasiyalı işini tələb edir. Psixoloq yalnız diaqnostika aparan və aralıq məsləhət verən mütəxəssis kimi deyil, məhkumun cəza müddəti boyu psixoloji inkişaf trayektoriyasını izləyən, risk və resurs dinamikasını qiymətləndirən, fərdi islah planının psixoloji hissəsini formalaşdıran və həyata keçirən əsas figur kimi çıxış edir.

İslah prosesinin nəticələrinin davamlılığı üçün azadlığa çıxış mərhələsində psixoloji dəstəyin davam etməsi, postpenitensiar dövrdə psixoloji və sosial xidmətlərin əlçatan olması mühüm əhəmiyyət daşıyır, çünki penitensiar mühitdə formalaşmış yeni davranış modelləri cəmiyyətə qayıdışda sosial təzyiq, stigma, iqtisadi çətinliklər fonunda sınaqdan keçir. Fərdi yanaşma konsepsiyası həm cəzaçəkmə dövründə, həm də sonrakı mərhələdə psixoloji müşayiətin davamlılığını nəzərdə tutur, residiv riskinin azaldılmasını yalnız hüquqi nəzarət mexanizmləri deyil, psixoloji dayanıqlığın və sosial adaptasiya bacarıqlarının gücləndirilməsi yolu ilə təmin edir.

**Nəticə**

Aparılan tədqiqat göstərir ki, cinayət törətmiş şəxslərin islahında fərdi yanaşma prinsipi yalnız normativ-deklarativ xarakter daşıyan ümumi müddəa deyil, cinayət icra hüququ, kriminologiya və penitensiar psixologiyanın kəsişməsində formalaşan kompleks idarəetmə və reabilitasiya modelinin əsas struktur elementidir. Cəzaların icrasının fərdiləşdirilməsi, məhkumun şəxsiyyətinə dair sistemli psixodiaqnostika, kriminoloji risklərin mərhələli qiymətləndirilməsi, motivasiya və dəyərlər sisteminə yönəlmiş psixokorreksiya proqramlarının, emosional tənzimləmə və sosial-psixoloji adaptasiya mexanizmlərinin inteqrasiyası penitensiar siyasətin islahedici potensialını əhəmiyyətli dərəcədə gücləndirir.

İşin elmi yeniliyi ondan ibarətdir ki, fərdi yanaşma prinsipi hüquqi və psixoloji aspektlərin vahid konseptual modeldə sintezi əsasında izah olunur, cəzaların icrası mərhələsində normativ tələblərlə praktiki psixoloji müdaxilə texnologiyaları arasında məntiqi körpü qurulur, fərdiləşdirmə daha çox formal diferensiasiya deyil, psixoloji əsaslandırılmış reabilitasiya strategiyası kimi şərh edilir. Tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, penitensiar müəssisələrdə fərdi iş planlarının hazırlanması, psixodiaqnostik risk xəritələrinin tərtibi, psixokorreksiya və sosial reabilitasiya proqramlarının strukturlaşdırılması üçün praktiki tövsiyə xarakterli konseptual baza formalaşdırılır.

Tədqiqatın iqtisadi səmərəsi residiv cinayətkarlığın azalması, penitensiar sistemin yüklənməsinin nisbətən aşağı düşməsi, postpenitensiar dövrdə sosial adaptasiyanın yaxşılaşması nəticəsində cəmiyyət üçün sosial xərclərin və təhlükəsizlik risklərinin azalması ilə xarakterizə olunur. Bu yanaşma uzunmüddətli perspektivdə cəza siyasətinin humanist məzmununu qorumaqla sosial-iqtisadi resursların daha rasional istifadəsinə imkan verir.

## ƏDƏBİYYAT SIYAHISI:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi. Penitensiar xidmətin inkişafı üzrə Konsepsiya. Bakı: Ədliyyə nəşri; 2017.
2. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı; 2020.
3. Azərbaycan Respublikası Ali Məhkəməsi. Məhkəmələr tərəfindən cəza təyin etməyin ümumi prinsiplərinin tətbiqi haqqında Plenum qərarı. Bakı: Ali Məhkəmə nəşri; 2018.
4. Andrews D.A., Bonta J. The psychology of criminal conduct. New York: Routledge; 2020.
5. Andrews D.A., Bonta J., Wormith J.S. The risk–need–responsivity model: progress in offender assessment and treatment. Criminal Justice and Behavior. 2019;46 (2):255–277.
6. Cullen F.T., Jonson C.L., Stohr M.K. The American prison: imagining a different future. Thousand Oaks: Sage; 2018.

7. Liebling A., Arnold H. Prisons and their moral performance. Oxford: Oxford University Press; 2017.
8. McNeill F. Pioneering desistance: insights from probation research. London: Palgrave Macmillan; 2019.
9. Ward T., Fortune C.A. Rehabilitation, agency and freedom. Abingdon: Routledge; 2018.

**Elnara Ahmed AHMEDOVA**
PhD in Psychology, Associate Professor at the Department of Political Science, Psychology and Social Work, Western Caspian University,
.
**Ali Imran Mirzayev**
Master`s student at the Departament of Psychology and Social Work, Western Caspian University

## THE PRINCIPLE OF INDIVIDUAL APPROACH IN THE REHABILITATION OF OFFENDERS: LEGAL AND PSYCHOLOGICAL ANALYSIS

**Summary**

The study aims to provide a systematic analysis of the principle of individual approach in the rehabilitation of offenders within the framework of criminal-executive law and penitentiary psychology. The research is based on normative legal analysis, comparative legal method and a system-analytic synthesis of criminological and psychological concepts, integrating legal regulation with psychological assessment and intervention. The findings demonstrate that combining individualized execution of sentences, structured risk assessment, psychological correction of motivation and value orientations, development of emotional self-regulation and enhancement of socio-psychological adaptation within a unified conceptual model significantly increases the effectiveness of penitentiary rehabilitation and reduces recidivism.

**Keywords:** individual approach, execution of sentences, penitentiary psychology, criminological risk, rehabilitation.

**Эльнара Ахмед АХМЕДОВА**
доктор философии по психологии, доцент кафедры политологии, психологии и социальной работы, Западно-Каспийского Университет

**Али Имран МИРЗАЕВ**
Магистрант кафедры психологии и социальной работы, Западно-Каспийского университет

## ПРИНЦИП ИНДИВИДУАЛЬНОГО ПОДХОДА В ИСПРАВЛЕНИИ ЛИЦ, СОВЕРШИВШИХ ПРЕСТУПЛЕНИЕ: ПРАВОВОЙ И ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ

**Резюме**

Цель исследования состоит в комплексном анализе принципа индивидуального подхода при исправлении лиц, совершивших преступление, в контексте уголовно-исполнительного права и пенитенциарной психологии. В качестве метода исследования используются нормативно-правовой анализ, сравнительно-правовой подход и системно-аналитический синтез криминологических и психологических концепций. Результаты исследования показывают, что сочетание дифференциации исполнения наказаний, психодиагностической

оценки рисков, психологической коррекции мотивационно-ценностной сферы, развития эмоциональной саморегуляции и социально-психологической адаптации в единой модели повышает эффективность пенитенциарной деятельности и снижает вероятность рецидива/

**Ключевые слова:** индивидуальный подход, исполнение наказаний, пенитенциарная психология, криминологический риск, ресоциализация**.**

**Daxil olub:** 05.03.2026